# BİLSƏN



Əli Ələmi (Əmirov)

Zərrələnib səpilmişəm yoluna,
Zərrə-zərrə yığa bilsən, yığarsan.
Can yandırdım sənin yanan halına,
Gözü yaşlım, yağa bilsən, yağarsan.

Saf eşqinlə yerə, göyə sığmadın,
Bu könlümə sığa bilsən, sığarsan.
Üfüqlərdən, mənə baxıb, çıxmadın,
Mən öləndə çıxa bilsən, çıxarsan.

Utanırsan açıq-aşkar baxmağa?
Gizli-gizli baxa bilsən baxarsan.
Öyrəşibsən yandırmağa, yaxmağa?
Yaxanı aç, yaxa bilsən, yaxarsan.

Heydərbaba dağlarında nələr var?
Şimşək olub, çaxa bilsən, çaxarsan.
Ayırmısan məni məndən, nə olar,
Araz kimi,.. axa bilsən, axarsan.

Baş qaldırıb, düşmən yenə göylərə,
Onu yerə soxa bilsən, soxarsan.
Torpağ umur, oğurlayır, bax, hərə,
Gözlərinə tıxa bilsən, tıxarsan.

Ələmidə hal qalmayıb, görərsən,
Məst eyləyib, yıxa bilsən, yıxarsan.
Əzizləyib, sənə üzük verərsə,
Barmağına taxa bilsən, taxarsan.

*08.12.2022*

# QOVUŞDUR

Ya Rəbb, bizi sevgili canana qovuşdur,
Haqq ilə olaq əl-ələ, yan-yana, qovuşdur.

Onsuz da, çökür, axırı viran olacaqdır,
İrana daha rəhm elə, Turana qovuşdur.

Babək qalasından gələ səs: "Qalxın ayağa!"
Xalqı o cihada, həmin üsyana qovuşdur.

Səttarxana de, millətə sərdar, oyan, dur!
O Şeyx Xiyabanini o Xana qovuşdur!

Ruhən dözə bilmir daha Seyyid Pişəvəri,
Çatsın nə olar kama, bax imkana, qovuşdur!

Sevgiylə tut o Azər(i)baycanın əlindən,
Burda darıxan Azər(i)baycana qovuşdur.

Görsün Ələmi, ta Vətən azadə, bütündür,
Şükr eyləyəcək, bildiyin ünvana qovuşdur!

*10.12.2022*